SAHİLSİZ DƏNİZ

Nigar Rəfibəyli Azərbaycan tarixinin çox mürəkkəb, keşməkeşli bir çağında dünyaya gəlmişdi. 1913-cü il – Romanovlar sülaləsinin üç əsr davam edən hökmranlığının son və nisbətən dinc ili idi. 1914-cü ildə birinci dünya müharibəsi başlanmış, bolşeviklər imperializm zəncirinin zəif həlqəsi hesab etdikləri Rusiyada iri miqyaslı çevriliş etmiş, 1917-ci ilin oktyabr hadisələri imperiyanın bütün ucqarlarında, o cümlədən də Azərbaycanda böyük əks-səda vermişdi. Bakıda, Gəncədə, Şamaxıda qarışıqlıqdan istifadə edən erməni daşnakları 1918-ci ildə azərbaycanlılara qarşı növbəti soyqırımı təşkil etmiş, on minlərlə soydaşımızın günahsız qanlarına bais olmuşdular. Böyük risk, məşəqqətlər və qurbanlar bahasına ilk Azərbaycan Cümhuriyyəti elan edilmiş, tarixdə birinci demokratik Azərbaycan dövləti fəaliyyətə başlamışdı.

Nigar xanımın atası Xudadat bəy Rəfibəyov əsrimizin əvvəllərində Avropada oxumuş ziyalılarımızdan biri, ali təhsilli ilk azərbaycanlı cərrah idi.

1919-cu ildə, gələcək şairə altı yaşında olanda, Xudadat bəy Azərbaycan Demokratik Cümhuriyyəti rəhbərliyinin təklifi və Gəncə ictimaiyyətinin təkidli xahişləri əsasında quberniyanın valisi vəzifəsini qəbul etmiş və bir il müddətində bu vəzifəni layiqincə icra etmişdi. Azərbaycanın zorla şuralaşdırıldığı ilk günlərdə isə Gəncədə hakimiyyətə doluşan daşnaklar Xudadat bəyi həbs etmiş, tələm-tələsik Bakıya göndərərək Nargin adasında güllələnməsini təşkil etmişdilər.

...Həyat davam edir, ədəbi proses də öz mürəkkəb, daşlı-qayalı məcrası ilə hərəkətindən qalmırdı. Partiya bir qara kabus kimi bu prosesin başının üstünü kəsdirib onu öz amansız daxili və xarici siyasətinin "təkərciyinə və vintciyinə" çevirirdi. İlk yaradıcılıq çağlarından Nigar Rəfibəylinin inqilaba, quruluşa, sonralar, 1940-50-ci illərdə isə Stalinə bəzi şeirlər həsr etməsinin əsas səbəbini başa düşmək, əlbəttə, çətin deyil. O, ətrafında baş verən dəhşətli hadisələri, rəsmi dairələrin dediyini deməyən sənətkarların necə təhdid və təqib olunduğunu görürdü. Bu şeirlərin yaranma səbəblərini yaxşı anlamaq üçün xüsusən Əhməd Cavadın adı və əsərləri ətrafında gedən və şairin güllələnməsilə bitən intriqaları, əvvəlcə Dağıstana, sonra Türkmənistana sürgün olunub oradan da xaricə qaçan Almas İldırımın acınacaqlı taleyini nəzərə almaq lazımdır.

Beləliklə də N.Rəfibəyli öz zəmanəsinin övladı idi. O da yaradıcılığa çağdaşı olan qələm yoldaşlarının bir çoxu kimi eyni yolla gəlmişdi. Burada mən ilk növbədə onun əsərlərinin mövzularını və ictimai məzmununu nəzərdə tuturam. "Şeirlər" adlı birinci kitabındakı əsərlər S.Vurğunun "Şairin andı", S.Rüstəmin "Ələmdən nəşəyə", R.Rzanın "Çapey", M.Rahimin "Arzular", M.Dilbazinin "Bizim səsimiz" kimi o zaman çap olunmuş kitablarındakı şeirlərdən mövzu və motivləri etibarilə az fərqlənirdi. Bunu qeyd etmək kifayətdir ki, ilk kitabındakı on bir şeirdən dördü qadınların artıq guya tam

azadlığa çıxdıqlarına, qalanları yeni quruluşun, yeni ictimai münasibətlərin tərənnümünə həsr edilmişdi. "Komsomolçu qızlar" poemasının isə elə adı bu baxımdan özü haqqında hər şeyi deyirdi. Bununla belə, ilk kitabında gənc şairəni bəzi qələm yoldaşlarından fərqləndirən məqamlar da var idi. Bunların ən vacibləri obrazlılıq və şeir dilinin ahəngdarlığı, rəvanlığı yaradıcılığa yeni başlamış müəllifin uğurlu axtarışlarının ilk nəticələri kimi maraqlı idi.

* * *

Cəmiyyətin, rejimin ədəbiyyatı, xüsusən poeziyanı ictimai problemlərlə həddindən artıq yüklədiyi bir zamanda, özü də vaxtilə dəbdə olan sosial-siyasi məzmunlu, çağırış ruhlu bir sıra əsərlər yazdığına baxmayaraq, Nigar xanım daxilən öz şair məni, şair sövqi-təbiisi etibarilə bitkin bir lirik idi. Nə edəsən ki, onun lirik duyğularının təzahürünə, əlvan hisslərinin gözəl şeir incilərinə çevrilməsinə zaman və şərait o qədər də münasib deyildi. Əgər münasib olsaydı "Doymadım", "Nazəndə bahar", "Aparma", "Dağlar", "Dözə bilmirəm", "Durna", "Su pərisi", "Qayıqçı", "Neyləyim?" və s. şedevrlər Nigar xanımın poeziya gülşənində boynubükük bənövşə kimi qalmazdılar.

Ala gözlüm, səndən ayrı gecələr,
Bir il kimi uzun olur, neyləyim?
Bağçamızda qızılgüllər hər səhər
Tezdən açır, vaxtsız solur, neyləyim?

Nərgizlərin gözü yaşla dolanda,
Bənövşələr baxıb qəmgin olanda,
Qərənfilin gözü yolda qalanda,
Yasəmən saçını yolur, neyləyim?

Əsən ruzgarın da yoxdur vəfası,
Düşmüşdür başına özgə sevdası.
Lalənin cırılıb qəmdən yaxası,
Saçları pərişan olur, neyləyim?

Bəlkə tez gələsən, əlac verəsən,
Sünbülün saçını yığıb hörəsən.
Əlvan çiçəkləri özün dərəsən
Gözləri yollarda qalır, neyləyim?

...Çəkir çiçəklərin gözü intizar
Ayrılıqdan betər dünyada nə var?
Bu bahar axşamı səni, bax, Nigar
Həzin-həzin yada salır, neyləyim?

Hörmətli oxucuların yadına salım ki, vaxtilə Azərbaycan və o zamankı İttifaq mətbuatında belə bir xəbər yayılmışdı: tanınmış İtaliya bəstəkarı Franko Manino özünün "Məhəbbət kantatası"nı yazarkən Nigar xanımın lirikasından bəhrələnmişdir.

Nigar xanımın lirikası geniş, vüsətli bir lirikadır. Onun palitrasındakı rənglər yalnız məhəbbətin tərənnümü, hicran yanğısının təsviri üçün deyil. Bu rənglər həyatın daha əlvan hadisələrinin inikası üçün, ictimai həyatda, insanlar arasındakı münasibətlərdə yol verilən haqsızlıqların ifadəsi, köməksizlərin müdafiəsi, ahəngdarlığın qorunması üçündür.

Mən tanıdığım və
tanımadığım
Adamların ağlamağına
dözə bilmirəm.
Həsrət ağrısına,
Ayrılıq dağına
Dözə bilmirəm.
Məhəbbətdən yaralanmış,
Yar-yoldaşdan aralanmış,
Dirilərin cərgəsindən
Adı-sanı qaralanmış
Nakamların qismətinə,
Dərdinə-möhnətinə
dözə bilmirəm...

Nigarın bir şair kimi sənətkarlıq xüsusiyyətlərinin təzahürü də ən çox onun lirikasında müşahidə olunur. Elə "Dəniz" şerini alaq. Bu əsər başdanbaşa bir müqayisə üzərində qurulmuşdur. Müəllif şair qəlbini dənizə təşbeh edir. Dəniz də, şair ürəyi də gecə-gündüz rahatlıq nə olduğunu bilmir. Axı dəniz bərk dalğalı, iri ləpəli olmayanda da həmişə təlatümdə, daxili hərəkətindədir. Dünyanın bilməcəli işlərinə, insanların taleyində baş verən hadisələrə reaksiya vermək üçün həmişə üst ayaqda durub kövrəlməyə, qəhərlənməyə, həyəcanlanmağa, bəzən də vulkan kimi püskürməyə hazır olan şair qəlbi də beladir. Lakin sən demə dənizlə şair qəlbi arasında çox böyük bir fərq də varmış: bu fərqi ancaq şair görə, duya və deyə bilər:

Mənim sevinclərim, hissim, bunu bil,
Sahilsiz dənizdir, hər yeri aşar.
Arada fərqimiz heç kiçik deyil:
Sən ha çırpınsan da bir sahilin var!

"Çiçəklər", "Ağ çiçək", "Qərənfil", "Nərgiz gülü", "Lalə", "Yasəmən kimi" ətir saçan şeirləri də, şərti olaraq "Məhəbbət miniatürləri" ümumi başlığı altında toplanması mümkün olan adsız əsərləri də onun sinəsində həmişə təbiətə, insanlara, gözəlliyə məhəbbət dolu geniş bir ürəyin çarpdığını sübut edir. Belə olduğu üçün şair ətrafındakılardan da həmişə ərkyana məhəbbət umub:

Ölümdən qorxuram,
Cəfadan, zülmdən qorxmuram.
Bircə məhəbbət yarasıdır
Ürəyimi qanadan...
Elə bil məhəbbətlə
Doğulmuşam anadan.
Bircə gün sevilməsəm,
Bulud kimi dolaram.
Bircə gün sevilməsəm
Çiçək kimi solaram.
Bircə an sevilməsəm
Bir anda məhv olaram.

Nigarın lirikasında əksini tapan duyğular, fikirlər, əsl poetik mətləblər dünyası haqqında nisbətən dolğun təsəvvür oyatmaq üçün şairin az qala bu səpkidə yazılmış bütün şeirlərini nümunə gətirmək lazımdır. Buna imkan olmadığı üçün mən ancaq bəzi şeirləri, onlarda qaldırılan mənəvi problemləri xatırlatmaqla kifayətlənəcəyəm.

"Tahir və Şahnabad dastanı" şerində: Bütün yaraların sağalmaq ehtimalı var. Lakin sevgilinin dönüklüyündən ürəyə vurulan yara, üzərindən uzun zaman keçsə də, gizlin-gizlin qövr edər və buna görə də heç vaxt sağalmaz.

"İnsan kamil olsun gərək" şerində: Adamlar bir qayda olaraq çalışırlar ki, düçar olduqları xəstəliklərdən xilas olub canlarını safa çıxartsınlar, vaxtlı-vaxtında yuyunub kir-pasdan təmizlənsinlər. Bəs nə üçün onlar kindən, həsəddən, kobudluqdan, paxıllıqdan, qərəzdən, kəmfürsətlikdən, yalandan, mərdimazarlıqdan silkinib, təmizlənib xilas ola bilmir? Niyə insanlar öz mənəvi mərəzlərindən yaxa qurtara bilmir? Bəlkə ona görə ki, heç özlərində belə xəstəliklərin varlığından şübhələnmirlər?..

Nigar xanım yaradıcı fikrə, insan azadlığına, sərbəst duyğulara buxov olan qayda-qanunlara açıq çağırış səciyyəsi daşıyan əsərlər yazmırdı. Elə şeirlər yazıb çap etdirirdi ki, onların həcmcə kiçik, hər cür çağırışdan uzaq olan qayəsini arif oxucu başa düşür və şairin izlədiyi qayədə, məqsəddə öz şəxsi qənaətlərinin ifadəsini görürdü. "Bayram" şerində olduğu kimi:

Bilsəydim sən gələcəksən,
Könlümdən bayraqlar asardım,
Şadlıq, sevinc nəğmələri yazardım.
Yandırardım bütün çıraqları,
Qonaq çağırardım evimə
Qışın ortasında baharı.
...Nəcib, fədakar

Ağıllı insanlar
Könlümə həmişə ilham olur,
Yaxşı adamlarla görüşəndə
Mənimçin ən böyük bayram olur!

Ümumiyyətlə, çox vacib ictimai-siyasi mövzularda belə Nigar xanım heç bir hay-küyə, zahiri təmtərağa yol vermədən, səmimi yazmağı bacarırdı. Cənubi Azərbaycandakı soydaşlarımızın xaincəsinə aldadıldığı, şah rejimi və sovet imperiyasının sövdələşməsi əsasında qəfildən əzildiyi 40-cı illərin ortaları çoxumuzun yadındadır. Bu barədə bəlkə minlərcə şeir yazılıb. Beş bənddən ibarət olan bu qoşmanı da Nigar xanım Aşıq Hüseyn Cavana nəzirə kimi yazmışdı:

Mən ki doymamışdım heç vüsalından,
Mənə zülm elədi yaman ayrılıq.
Nə olaydı bir gün durub yuxudan
Görəydim ki, olub yalan ayrılıq...

Biz ki bir ruh idik iki bədəndə,
O gülüb-sevinsə gülərdim mən də.
Vüsalın bülbülü uçub gedəndə
Daş kimi qəlbimdə qalan ayrılıq.

...Kim qıydı dostların bahar elinə,
Mehriban sözünə, şirin dilinə?
Cananın sazını alıb əlinə
Əğyar mizrabilə çalan ayrılıq!

Mən görəndə orda yaz səhəriydi,
Xoş nəfəs baharın küləkləriydi.
Açılan ağ badam çiçəkləriydi,
İndi onlardımı solan, ayrılıq?

...Pozulmaz dostların əhdi, ilqarı,
Gün çıxar, dağların əriyər qarı,
Keçər ürək dərdi, könül qubarı,
Gəl etmə meydanda çövlan, ayrılıq!

Şeirlərindən aşkarca görünür ki, Nigar xanım öz zəngin müşahidələri əsasında insan psixologiyasının incəliklərini araşdırmış, bu sahədə uğurlu ümumiləşdirmələr aparmışdır. Hər birimiz hər gün qarşılaşdığımız onlarca adamla salamlaşırıq. Biz, adi insanlar, bu salam verənləri ən çoxu iki qismə bölə bilərik; səmimi salam verənlər və qeyri-səmimi salam verənlər yaxud, hay-küylə salam verənlər və ehmalca salam verənlər. İndi də salamlaşdığı adamlarla əlaqədar olaraq Nigarın müşahidə çevrəsinin vüsətinə baxaq: onun

kiçik həcmli bir şerində ən azı on cür salamlaşma təsbit olunmuşdur. Şair müxtəlif münasibətlərlə salamını kəsənlərin də bir neçə kateqoriyasını müəyyən edə bilmişdir:

Birinin gözləri gülür
salam verəndə.
Birinin könlünün işığı
gözlərindən tökülür
salam verəndə.
Biri həzin, qəmli salam verir,
Biri sərxoş kimi, dəmli salam verir.
Biri təmkinlə, ağır-ağır salamlaşır,
Biri yaman fağır-fağır salamlaşır.
Biri buz kimi soyuq,
şaxtalı salam verir,
Birinin dağınıq fikri,
xəyalı salam verir...
Biri rəsmi salamlaşıb keçir,
Biri salam vermək əziyyətindən
uzaqlaşıb keçir...
Biri acı, istehzalı salam verir,
Biri xeyli təkəbbürlü,
xeyli ədalı salam verir.
Biri salam vermir
Həyat bizi əyəndə...
Biri salamlaşmayır
Yoldaşımla arası dəyəndə...
Biri minnətlə salam verir,
Biri xeyli əzab-əziyyətlə salam verir...
Sadə salamları sevirəm!

Gətirilən və gətirilməyən çoxlu nümunələrdən də bir daha göründüyü kimi, bayatı, qəzəl, hecanın çox zəngin bölgülər qamması, sərbəst şerin çeşidli formaları Nigar xanımın əsərlərinin sözün həqiqi mənasında polifonizmini təmin etmişdir. Ədəbi tənqid bu qənaətində tamamilə haqlıdır ki, Nigar üçün başlıca yaradıcılıq məsələsi əsərlərində öz ifadəsini tapan poetik fikirdir, ədəbi mətləbdir. Şair qəlbinin özünəməxsus çırpıntıları da hər şeydən əvvəl məhz bu poetik fikrin, ədəbi mətləbin özündən doğur.

* * *

Nigar xanımdan, onun sənətkar taleyindən söhbət gedərkən təbii olaraq yadımıza hamıdan çox əsrimizin böyük şairi Rəsul Rza düşür. Bəli, Nigar Rəfibəylinin də, Ənvər Məmmədxanlının da, Anarın da, Rəsul müəllimlə

səmimi dostluq etmiş Cəfər Cəfərov və Abbas Zamanovun da yaradıcılıq əlaqələri saxlamış bəzi digər sənətkarlarımızın, o cümlədən gənc istedadların da inkişafında, bir sənətkar kimi öz fərdi simalarını tapmasında bu böyük şairlə ünsiyyətin şəksiz rolu olmuşdur. Lakin bu faktı qəbul etmək hələ adı çəkilən və çəkilməyən sənətkarların bir şair, nasir, dramaturq, yaxud tənqidçi kimi böyük potensiala malik olduğunu, yəni təbiətin, Allahın onlara bəxş etdiyi ilham nemətini, bu nemətin həlledici məna və əhəmiyyətini qətiyyən kölgə altına ala bilməz.

Burada yenə də Nigar xanımın tərcümeyi-halının bəzi faktlarını yada salmağa ehtiyac var. Onlar 1937-ci ildə fevralın 11-də evlənmişdilər. Bu izdivacdan təqribən on il əvvəl isə Gəncədə Nigargilin mənzilində keçirilən ad günü məclisində onun oxuduğu şeirlər, bu görüşün şahidlərindən birinin sonralar yazdığı kimi, kimya müəllimi Yusif Məmmədəliyevi və tənqidçi Mikayıl Rzaquluzadəni o qədər mütəəssir etmişdi ki, onlar bu münasibətlə gənc şairəyə üstündə yadigar sözləri yazılmış gümüş qələm bağışlamışdılar. Oxucularımızın çoxu yaxşı bilir ki, sonralar Elmlər Akademiyasının prezidenti olmuş akademik Yusif Məmmədəliyev həm də yaxşı bir ədəbiyyat bilicisi olmuş, özü də şeir yazmışdır). Təqribən bu vaxtlarda Nigar Bakıya gəlib o zaman "darülmüəllimin" deyilən Pedaqoji texnikuma daxil olmuş, sonralar uzun müddət ailəlikcə dostluq etdikləri mərhum Abbas Zamanovla bir sinifdə oxumuşdur. İzdivaclarından hələ doqquz il əvvəl Nigar özünün "Çadra" adlı ilk şerini "Dan ulduzu" jurnalında nəşr etdirmişdi. O, yazmağı davam etdirmiş və 1934-cü ildə kitablarının ilk bahar qaranquşu – "Şeirlər" adlı məcmuəsi Azərneşrdən qanadlanıb Azərbaycanın hər yerinə uçmuşdu. Yenə də həmin ildəcə o zaman şairi ədəbiyyat həvəskarlarından ayıran, onun professionallığını təsdiq edən bir hadisə baş vermiş, 20 yaşı təzəcə tamam olan Nigar xanımı SSRİ Yazıçılar İttifaqına üzv qəbul etmişdilər. Ailə qurmalarına bir il qalanda isə Nigar xanım Moskva Pedaqoji İnstitutunu müvəffəqiyyətlə bitirmiş, sonrakı illərdə məhsuldar davam edən tərcüməçilik fəaliyyəti də sübut edir ki, rus ədəbi dilini bütün incəliklərinə qədər mənimsəmişdir.

Beləliklə də onların ulduzları barışanda Nigar xanım bolşeviklərin 1920-ci ildə güllələdikləri Gəncə valisinin qızı kimi çox amansız təqiblərə məruz qaldığına baxmayaraq, bu yaşında bir ismətli, zəhmətkeş, qeyrətli Azərbaycan qızının əldə edə biləcəyi hər şeyə nail olmuş yetkin bir şair idi. Rəsul Rza da ki, öz yerində, öz məqamında.

Artıq həyatdan getmiş bu sənətkarların tərcümeyi-halının hər bir anı, hər bir məqamı bu gün onların xatirəsinə ehtiram bəsləyən, onların irsini sevən bütün oxucular, hər bir ziyalı üçün dərin maraq mənbəyidir. Hər ikisinin xarakterində, xasiyyətində çox güclü özünəməxsus cəhətlər olduğuna baxmayaraq, bu izdivac qayım-qədəm, sabit, çox ahəngdar bir ailənin təməlini qoymuşdur. Amansız xəstəliyin hər ikisini tərksilah etdiyi bir-iki ayı çıxmaq şərtilə 46 il ərzində bu izdivac, bu məhəbbət həyatın hər cür amansız imtahanlarından mətanətlə çıxmış, heç zaman sarsılmaq nə olduğunu bilməmişdir.

Nigar xanımla Rəsul müəllim iki sənət adamı, iki vətənpərvər ziyalı, zəmanəsinin iki güclü hiss və dərin intellekt adamı kimi bir-birini çox yaxşı duyur, başa düşür, bir ailənin sütunları olmaq etibarilə bir-birini yaxşı tamamlayırdılar. Buna görə də Rəsul Rzanın Nigar xanım haqqındakı qənaət və poetik təəssüratlarından bir qismini yada salmağa təbii bir ehtiyac duyuram.

Şairin "Məktublar" adı ilə dərc olunmuş bir şeirlər düzümü var. Bu "Məktublar" lirik poeziyanın kamil nümunələrindəndir. Təqribən beş il ərzində yazılıb hasilə gəlmiş bu əsərin ikinci adı "Səndən sənə"dir. Həmin məktublar 30-cu illərdə, xalq tarixinin keşməkeşli çağlarında, ictimai gerçəkliyin çox mürəkkəb bir dövründə başlayan və az qala yarım əsr davam edən bir məhəbbətin poetik salnaməsidir. Məktublar boyu ara-sıra səpələnmiş tərcümeyi-hal faktlarından müəyyən etmək olur ki, R.Rzanın şair təxəyyülü bu əsərdə Nigar xanımla özünün məhəbbət dastanının bəzi səhifələrini canlandırmışdır. Burada 21 yaşlı gənc şairin 18 yaşlı sevgilisinə yazdığı ilk "Tanış olaq!" müraciətindən tutmuş, on illər keçdikdən sonra namərd xəstəliyin amansız məngənəsində sıxılanda qələmə aldığı etirafına qədər, çox maraqlı məhəbbət tarixçəsi, sevgilisinin ona verdiyi xəsis cavablar öz əksini tapmışdır.

Sevgilinin bu məktublara ilk reaksiyasını cavab adlandırmaq da bir qədər çətindir. Məsələn, ilk məktubun cavabının əvəzinə əsərdə bir sətir nöqtə qoyulub. Bu cür özünəməxsus "cavabların" nə demək olduğunu, cavan aşiqi necə yandırıb yaxdığını, onun məhəbbət duyğularını daha da coşdurduğunu sevib-sevilməyin, bəzən də "sevilməməyin" şirinini-acısını dadmış oxucular yəqin ki, özləri yaxşı təsəvvür edirlər. Lakin sevgilinin artıq bir qədər insafa gəldiyi, ram olduğu məqamlar da var:

Sabah Müşfiqlə Dilbər
Yeni tamaşaya gedirlər.
Bizi də dəvət edirlər.
Razı olsanız əgər...

Gənclik illərində xüsusi təravətlə təzahür edən bu duyğular heç vaxt ötəri səciyyə daşımamış, bütün yaradıcılığı boyu R.Rza lirikasının aparıcı yönlərindən, mahiyyət xarakterli tərkib hissələrindən biri olmuşdur. İlk dəfə 1976-cı ildə nəşr edilmiş "Sevinəndə sevincim" şeri buna çox gözəl nümunədir:

Bir gün səni görməsəm
könlümdə tufan olur.
Səni qəmli görəndə
Ürəyim şan-şan olur.
Məhəbbətin yolunda
Qəm olur, hicran olur.
Sən məni bu sevdanın
yollarına salansan,
Sevinəndə sevincim,
ağlayanda nalamsan...

Bu məktublar nəfəsinin odu ilə dağı-daşı yandıran gənc aşiqlərin, onların dəliqanlı təbiətinin, ehtiraslarının ifadəsindən çox uzaqdır. Onlarda biz artıq həyatın isti-soyuğuna düşmüş, kirpiklərilə od götürmüş, on illərin sərt sınaqlarına sinə gərmiş iki müdrik adamın, ev-eşik, oğul-uşaq, bədii xəzinələr sahibinin və nəhayət, təmənnasız sevən iki səmimi qəlbin aramla ifadə olunmuş duyğuları ilə isinirik. Lakin yenə də lirik qəhrəman üçün təbiətin hər bir guşəsi, canlı aləmin ürək açan hər bir təzahürü, gözəllik dünyasının hər bir təbəssümü sevgilisi ilə münasibətləri barədə xoş duyğular oyadan rəmzlərdir.

Günlər keçir ağır-ağır
Səndən ayrı.
Yollarıma gecə-gündüz
Çiskin-çiskin kədər yağır
səndən ayrı.
Qulağımda gülüşünün şəlaləsi
səndən ayrı.
Xəyalımda titrək, kövrək
dodağının piyaləsi
səndən ayrı.
Dəniz gəlir dalğa-dalğa, qıvrım-qıvrım,
dönür geri sənsiz görüb sahilləri.
Küləklər də sığallamır çiçəkləri
səndən ayrı...

1980-ci ildə yazdığı "Bioqrafik etirafım" şerində də R.Rza öz zərif və kövrək lirik şair təbiətinə sadiq qalmış, yetmiş illik ömrünün heç nə ilə ölçülməyən ən vacib dəyərləri arasında özünün böyük məhəbbətini, Nigarının sədaqətini xüsusi iftixar duyğusu ilə tərənnüm etmişdi:

Bir sadiq ömür dostum,
Şeir dilli yarım var;
bir də doğru sözümü
şax deməyə cürətim,
haqqım, ixtiyarım var!

Mətləbin bu hissəsini N.Rəfibəylinin çox böyük səxavətlə, ürək genişliyi və şair hərarətilə yazdığı bu etirafla bitirmək istərdim: "Bərabər ömür sürdüyüm R.Rza ilə keçən günlərimi vərəqlərkən aydın bir həqiqət diqqəti cəlb edir: Bütün bu ağır və yüngül, sevincli və sevincsiz, kədərli və bayramlı günlərdə bizim xalqdan ayrı heç bir sevincimiz, xalqdan ayrı heç bir qəmimiz olmamışdır. Xalqın həyatı ilə yaşamış, onunla nəfəs almış, ən ağır günlərdə dərdinə şərik olmuşuq".

* * *

Qadın ülviyyəti, ana ucalığı məhəbbətin başlanğıcı kimi, ailədə, eləcə də cəmiyyətdə, hətta dünya miqyasında sülhün, əmin-amanlığın daşıyıcısı kimi, nəhayət, ən zərif duyğuların mənbəyi kimi N.Rəfibəylinin əsərlərində dönə-

dönə, xüsusi ilham və həvəslə, poeziyanın bütün imkanları ilə tərənnüm olunur. Nigarın pak ürəyində Rəsula sevgisi, analıq duyğusu, nənəlik məhri, vətən məhəbbəti, nəhayət, poeziyaya sədaqət on illər boyu dinc yanaşı yaşamış, qonşuluq etmiş, həyatın, məişətin konkret tələblərilə, yaradıcılıq intibahlarının gücü ilə əlaqədar olaraq bunlardan gah biri, gah o biri ön plana çıxmış, lakin heç biri ömrünün sonunadək şairi tərk etməmişdi...

1967-ci ilin iyulunda "Ağ liman" romanı haqqında kəskin tənqidi məqalə çıxanda Nigar xanım Anara belə bir şeir yazıbmış:

Körpəlikdə ayağına daş dəysə,
Ürəyimə dəysin deyərdim.
Küləyin, tufanın nəfəsi
Sənə toxunmasın,
Məni əysin deyərdim.
İndi ürəyimi yaralayırlar –
dinə bilmirəm.
Niyə yaşadım,
qaldım
bu günə – bilmirəm!..

Tale bütün analar kimi, kim və nəçi olduğunun fərqinə varmadan Nigarın da çiyninə böyük bir ailənin qayğılarını, o cümlədən mətbəx qayğılarını qoymuşdu. Nigar xanım bu qayğılarını nümunəvi surətdə, artıqlaması ilə yerinə yetirir, bəzən hətta mətbəxin özünü də yaradıcılığının bir atributuna çevirməklə həyatın, məişətin prozasında öz poeziyası üçün bir tutarqa tapa bilirdi. Bu misralarda olduğu kimi:

Ürək geniş olarsa,
xəyal dərin olarsa,
Nə arzular ölər,
Nə fikir sönər.
Könüldə bir işıq,
bir atəş varsa -
Balaca bir mətbəxdən də
böyük bir dünya görünər.

Bu görünən yalnız öz gur yarpaqları ilə pəncərədən içəri soxulan qovaq ağacı, onun ilin dörd fəslinin hərəsində bir dona girən qəddi-qaməti deyil. Burada eşidilən də ancaq mətbəx kranından axan suyun şırıltısı, bişib hasilə yetən xörəyin cızıltısı, nəhayət, yuyulub üst-üstə qoyulan boşqabların, stəkan-nəlbəkinin, çəngəl-bıçağın cingiltisi deyil. Mətbəxin pəncərəsi küçəyə, Nigar xanımın könül aləminin pəncərəsi isə dünyaya, canlı aləmə açıq idi: onun rənglərinə, ahənginə, insanların taleyinə. Bu mənada əlbəttə, Nigar xanım tək Anarın və onun bacılarının anası deyildi. O, qədim bir xalqın şair övladı, şair anası idi. Şair ananın qəlbi isə çox geniş idi. Burada Azərbaycanın

bütün övladları ilə yanaşı, bizdən uzaqdamı, yaxındamı yaşamasından asılı olmayaraq, dünyanın bütün uşaqlarına məhəbbət, hərarət yuva salmışdı. Bu problemə həsr olunmuş bir şerinə "İnsan balaları" adı verməsi və "İşıqlı dünyam" kitabının həmin şeirlə açılması da çox əlamətdardır:

Balaca balalar,
insanların balaları!
..Havanı, suyu, günəşi
Sizə verə biləydim!
İsti otaqlardakı
gur işıqları
Ocaqlarda yanan atəşi
Sizə verə biləydim...
Sizin yalın ayaqlarınızı
üşüyən əllərinizi
Ürəyimin hərarətiylə
qızdıra biləydim,
Zamanın əliylə sizə –
yer üzündəki
bütün insan balalarına
Əbədi səadət fərmanı
yazdıra biləydim!

Bu şeri oxuyanda xəyalım ağ buludları aşıb engin üfüqlərə qalxdı, Nigar xanımın mübarək ruhuna rəhmət oxuya-oxuya o gələcək günləri gözlərim önündə canlandırdım: dünyanın ən müxtəlif guşələrində yaşayan insan balalarının ataları bir-birilə, xüsusən öz qonşuluğunda yaşayan atalarla ümumi dil tapıb dinclik, asayiş kağızına, hər cür torpaq iddiasından uzaq olan sülh baratına qol qoyublar və Azərbaycanın xalq şairinin öz əsərində arzuladığı "Əbədi səadət fərmanı"nı hər kəs öz dilinə çevirib qədim türk abidələrində olduğu kimi nəhəng daşlara həkk etdirib ən etibarlı yerdə qoruyur, bir-birilə öz uşaqlarının səadəti naminə qonşuluq və əməkdaşlıq edirlər...

* * *

N.Rəfibəylinin dilimizə çevirib nəşr etdirdiyi əsərlər Azərbaycan bədii tərcümə sənətinin çox qiymətli fəsillərindən birini təşkil edir. Onun tərcümələri arasında Məhsətinin rübailəri, Nəvainin qəzəlləri, Puşkin, Lermontov, Anna Axmatova və Marina Svetayevanın şeirləri vardır. Bir mütərcim kimi şairin maraq dairəsi zəngin, erudisiyası geniş idi.

İtalyan məşhurlarından Aligyeri Dante, polyak şairi Adam Mitskeviç, macar şairi Şandor Petefi, şotland şairi Pobert Bems və ingilis şairi Şellinin öz ruhuna uyar, zövqünə, könül dünyasına yaxın olan şeirlərinə Nigar xanım Azərbaycan dilində təzə həyat vermişdir. Onun ancaq rus ədəbiyyatından, bilavasitə orijinaldan etdiyi tərcümələr, onlarda əksini tapmış mütərcim sənətkarlığı məsələləri maraqlı bir tədqiqat əsəri üçün yaxşı mövzudur. Nigar xanımın uğurlu tərcümələri arasında Evripidin "İfigeniya", Şillerin "Məkr və məhəbbət", Çexovun "Albalı bağı" pyesləri, Viktor Hüqonun "93-cü il", E.L.Voyniçin "Ovod" romanları kimi dünya ədəbiyyatının klassik nümunələri vardır.

Bədii tərcümə Nigar xanım üçün həbbi yox, əsl yaradıcılıq işi idi və ona görə də gözəl səmərə verirdi. Yaxın Şərq lirikasının görkəmli nümayəndələri olan Xəyyam, Xaqani və Məhsətinin rübailərinin dilimizdə adekvat tərcümələri az deyil. Lakin Nigar xanımın tərcümələri bu böyük sənətkarlardan yüksək səviyyəli, incə zövqlü, peşəkar bir şairin aldığı şəxsi intibadır. Onun tərcümələrində rübailər orijinalın bütün məna yükünü ehtiva etməklə bərabər, hər biri təklikdə müstəqil poetik vahiddir və çox da uğurludur.

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki, zəhər.
Çox da öyünmə ki, uzundur ömrün,
Əcəl köhlənində hazırdır yəhər.

Xərabatdan çıxan bir ay ucaldı,
Fələyin damında bir çadır saldı.
Qəfləton ucaldı Hatifdən bir səs:
Bu dünya bir saman çöpünə dəyməz.

Onun orijinallı, tərcümələri, böyüklər və uşaqlar üçün yazılmış 35 kitabı nəşr olunmuşdur. Əlbəttə, bunlar şair, tərcüməçi, vətəndaş Nigarın vüsətli ədəbi fəaliyyəti haqqında aydın təsəvvür verir. Lakin Anar belə hesab edir ki, onun 50 illik ədəbi fəaliyyəti üçün bu azdır. Şairi hamıdan yaxşı tanıyan, bir yazıçı kimi anasının həyatını çoxlarının heç vaxt görə bilmədiyi təfərrüatları ilə incədən-incəyə müşahidə edən Anarın bu mülahizəsi haqlı imiş. O, öz fikrini açıqlayaraq yazır: "Anam yaza biləcəklərinin yüzdə birini də yaza bilmədi. Ailə borcu, analıq vəzifəsi, böyük evin qayğıları onun yaradıcılığına mane olurdu. Biz hamımız onun vaxtını talayırdıq, qarət edirdik, onu yazı masasından ayırırdıq, hisslərini, duyğularını, fikirlərini dağıdıb pərən-pərən edirdik... Həmişə yanındaydıq, həmişə böyründəydik, həmişə onunlaydıq; öz-özü ilə tək qalmasına imkan vermirdik, qəlbiylə baş-başa qalmağa macal tapmırdı".

Anarın bu yanıqlı etirafını oxuyanda fikirləşdim ki, bu ailə, övlad-nəvə mühitində qeyri-yaradıcılıq sahəsinə bu qədər vaxt sərf etdiyinə baxmayaraq, Nigar xanımın 35 kitabı çap olunubsa, deməli o, əsl sənət aşiqi, yaradıcılıq fədaisi imiş!

Mətləbi Nigar xanımın kiçik bir şerilə bitirmək istəyirəm. Bu şeirdə nikbin şairimiz cəmiyyətimizin, ədəbiyyatımızın, şerimizin, bütünlükdə şüurumuzun, mənəviyyatımızın sabahına inanmış, bununla əlaqədar bir ağbirçək, bir millət anası kimi öz tövsiyələrini vermişdir:

Şairin üstünə ruzgarlar kimi
Həm sola, həm sağa birdən əsməyin.
Hələ səsi gəlir, nəfəsi gəlir,
Onu basdırmağa çox tələsməyin.
Özgə bir dünyadır şair aləmi,
Gizlində saxlanar qüssəsi-qəmi.
Qırılsa şairin bir gün qələmi
Qırıb hər ümidi ondan kəsməyin.

Torpağın altında xəzinə yatır,
Çox zaman bilinməz orda nə yatır.
Şairin könlündə qərinə yatır,
İncə duyğuları qırıb əzməyin.
Heykəl də qoymayın şairə vaxtsız,
Zaman sınağından qoy qalib çıxsın.
Nə oxucu ona söyləsin baxtsız,
Nə dövran uçurub heykəli yıxsın.

Qəlblərdə yaşasın onun heykəli,
Şeri məşəl kimi illəri yarsın.
Gələcəyin xoşbəxt nəsillərinə
Əsrindən, dövründən salam aparsın.

Dünənimizdən bu günümüzə olduğu kimi, bu günümüzdən də sabahımıza, səadətə qovuşacaq nəsillərimizə salam aparan, xoş müjdələr verən o nadir şeir inciləri arasında mən unudulmaz Nigar Rəfibəylinin də əsərlərini görürəm. Nigaran olmaya bilərsiniz, Nigar xanım!

Bəkir Nəbiyev

QƏRƏNFİLLƏR

GÜNƏŞDƏN GƏNCLİK İSTƏDİM

Günəşdən gənclik istədim,
Dənizdən coşqun həvəs.
Meşədən dinclik istədim,
Küləkdən ilıq nəfəs.
Güllərdən ətir istədim,
Quşlardan iti qanad.
Yarpaqdan çətir istədim,
Ömürdən coşqun həyat.
Dağdan əzəmət istədim,
İnsanlardan məhəbbət.
Nə istədim, nə istədim –
Verdi mənə təbiət.

QAYIQÇI

Qayıqçı, məni də apar dənizə,
Oturaq sənlə bir az üz-üzə...
Bir günəş, bir səma, bir dəniz olsun.
Sularda uzanan kölgəmiz olsun
Uçsun qağayılar dörd dövrəmizdə,
Əyləndirsin bizi mavi dənizdə.
Sənlə bir olsam qorxmaram, inan,
Qoparsa dənizdə fırtına, tufan
Qayıqçı, məni də apar dənizə,
Oturaq sənlə bir az üz-üzə.
Bir dəniz, bir səma, bir günəş olsun,
Bir də qağayılar bizə əş olsun.
Qayıqçı, məni də apar dənizə,
Bir olsaq tufan da xoş olar bizə.

QƏRƏNFİL

Bahardı, hər tərəf güldü, çiçəkdi,
Güllər bir-birindən xoşdu, göyçəkdi.
Gördüm ki, başını əymiş qərənfil,
Dedim: – Kim xətrinə dəymiş qərənfil?!
Dedi ki, nərgizdən, lalədən, güldən,
Neyləyim, ətirli yaranmadım mən.
Seyr et bu gülzarı amandır bir az,
Heç bir fikir verməyir burda mənə yaz?..
Bülbül gülün olmuş eşqindən dəli,
Nəyinə lazımdır dünya gözəli?
Çəmən xoş ətirli güllərlə dolmuş,
Yar seçib könlünə burda vurulmuş
Nərgizə göyərçin, laləyə kəklik;
Mənimsə bəxtimə yazıldı təklik,
Yasəmən gözləyir gülgün səhəri,
Oxşayır kölgələr bənövşələri;
Məni nə oxşayan, nə də sevən var
Heç görməyir məni elə bil bahar.
Gəl başlama – dedim – şikayətə sən,
O nazik qəlbinlə bu gənc ömründən
Gəl başını qaldır, gözəl qərənfil,
Sənə bu küskünlük yaraşmayır bil.
Coşqun bir bahardır ömrün hər dəmi
Burax, qərənfilim, bu yersiz qəmi.
Sənin də öz ətrin, öz rayihən var,
Doğma bir anadır sənə bu bahar.

QARA DƏNİZ

Qara dəniz sularında əriyir axşam,
Uzaq sahillərdə işıqlar yanır...
Könlümdə bir şirin əməl oyanır.

Tökülsün ulduzlar Qara dənizə,
Bu qara dalğalar dönsün gündüzə,

Çıxsın göy sulardan gecələr qızı,
Ucalsın göylərdə səhər ulduzu,
Çəkilsin gecələr Qara dənizdən.
Gülsün bizim kimi Qara dəniz də!

Qara dəniz sularında əriyir axşam,
Uzaq sahillərdə işıqlar yanır,
Könlümdə bir şirin əməl oyanır.

YAZ GECƏSİ

Ağaclar pıçıldaşır,
Çiçəklər danışırdı.
Ulduzlar göy üzündən
Hey baxıb qımışırdı.
Səs-səmir kəsilirdi
Hər yandan yavaş-yavaş.
Çiçəklər bir-birinin
Çiyninə qoyurdu baş.
Güllər mürgüləyirdi,
Yuxlayırdı kəpənək:
Yatıb dincin alırdı
Yaşıl ot, sarı çiçək.
Meh əsir, yırğalayır
Yatmış otu, çiçəyi.
Meh əsir, oxşayırdı,
Yuxulu kəpənəyi.

GÜNƏŞ DOĞANDA

Səhər günəş doğanda
Aləm nura boyanır,
Şehli qərənfillərin
Üzündə sevinc yanır.
Çiçəklərə, güllərə,
İnci şehlər ələnir.

Sarı saçlı sünbüllər
Dərya tək ləpələnir.
Gündüzləri işıqlı,
Gecələri füsunkar.
Həmişə sevinclidir,
Fəhərlidir ilk bahar.

GƏL SƏHƏRİ SALAMLAYAQ

Gəl quşları, çiçəkləri salamlayaq,
Yaşıl otlar ayağına xalı sərir,
Şehli güllər sənə təbəssüm göndərir.
Quşlar şux nəğməsiylə sənə "qalx, oyan" deyir,
Xiyabanlar "tələsmə, sən, bircə dayan" deyir.
Gəl baharı salamlayaq,
Gəl dostları salamlayaq.

Ulduzlar bu axşam sarıdır yenə,
Tökülmüş elə bil suyun üstünə...
Gecədir, gecədə başqadır aləm
Kainata vida eləmişdir qəm.
Dolaşır xəyalım hey fəsilləri
Keçir rüzgar kimi hey diyar-diyar.
Yenə qucaqlayıb aydın səhəri,
Yalnız xoş görünür ona ilk bahar.

AĞLASIN

Bir dostun ölümü münasibətilə

İnsanlara, sədaqətə inanan,
Etibara, məhəbbətə inanan,
Xoş arzuya, xoş niyyətə inanan
Bu insanın matəminə ağlasın.

Ayrılıq qəmiylə deyib gülməyən,
Göz yaşını gözlərindən silməyən,

Fəğan edib ağlamağı bilməyən
Öz daxili aləmində ağlasın.

O yaşadı doğma elin eşqilə,
Azad xalqın, azad dilin eşqilə,
Ömür sürdü bir gözəlin eşqilə,
Qoy dostları son qəmində ağlasın.

Nakam ölməz övlad qoyub gedənlər,
Təmiz, gözəl bir ad qoyub gedənlər,
Nəsilləri xoşbəxt qoyub gedənlər
Ayrılığın bu dəmində ağlasın.

FƏSİLLƏRƏ SƏYAHƏT

Quşlar civildəşir, açılır səhər...
Əlində sənəyi bir nazlı dilbər
Bulağın başına enəndə bəzən
Ürkək maral kimi çöllərdə gəzən
Xəyalım yüksəlir, qalxır dağlara,
Şaxtalı bir qışdan coşqun bahara!..

Yalqız otağımda bir çıraq yanır,
Soyuq pəncərədən buzlar sallanır.
Çıtırdayır ocaq, səslənir hərdən,
Bayırda tufan var yenə səhərdən.

Çoxdandır tökülmüş sarı yarpaqlar,
Günəşdə bu axşam bir qəribilik var.
Quru budaqlarda zərif göyərçin
İndi ev axtarır sığınmaq üçün.

Qanadlanır xəyal, uçur burdan da
Yenə mənzil salır başqa məkanda.

TİRENDƏ

Yaşıl dalğalı bir dəniz kimi,
Arasından taxılların
Sürünüb keçdi bizim qatar,
Sürətini yükləyərək
saatların arxasına.
Günəş sularda doğar, batar,
Yüksəlir,
Günəşin evindən işıqlar gəlir...
Gecə bəyaz,
Bir Qafqaz
Qızı ince belli
Şamların qoynuna girmiş
İrmaqlardan çağlayan
bir masal söyləyirmiş...
Qıvırcıq başlı tompul söyüdlər
Əymişlər başlarını
Mina rəngli sulara...
Yol uzun,
Gecə bəyaz
Gecəyə axan
Bir səs,
bir musiqi səsi var;
bu səs, bu ahəngdar
melodi
relslərdə çırpınan
çarxların səsi.

1929

KOMANDAN

Mən qəlbimin ilk eşqini
Sənə verdim uzaqdan,
Bu gün də xəyalımda
Bəslədiyim komandan!..
Mən kiçikdim o zamanlar
Sən göy atın belində,
Hacıkəndin dağlarında,

Gözəl vətən elində,
At çapardın təlimlərdə
Vurar, nişan alardın.
Göy dağların sinəsinə
Sən vəlvələ salardın.
Mən kiçikdim, o zamanlar
Sən vüqarla keçərdin;
Bəzən bulaq başlarında
Ovucla su içərdin.
Mən dalınca baxa-baxa
Həsrət çəkərdim sana,
Komandanım, o günləri
Bir yadına salsana...
Yadındamı, komandan,
Ağacların dalından
Söz atıb dillənən qız?
Söyüd budaqlarında,
Yalın ayaq, hər axşam,
Oturub yellənən qız?

Mən kiçikdim, komandanım,
Lakin sevirdim səni;
Bəsləyərdim ürəyimdə
Böyük bir əməl kimi,
Yenilməz bir arzu kimi.
Sarsılmaz bir ər kimi.
Bilirdim ki, sən qoymazsan
Düşmən mənə kəm baxa,
Gəncliyimin şən çağından
Bahar ötə, qəm baxa.
Yadındamı, komandan,
Su içməyə bulaqdan,
Endin, atın dayandı,
Ürəyim oda yandı...
Su doldurub verəndə,
Sən başımı oxşadın.
O gündən bu qəlbimə
Yazıldı sənin adın!

ANA, MƏNƏ MAHNI OXU

Ana, mənə mahnı oxu,
Ana, getmə, yanımda qal.
Gözlərimə qonsun yuxu,
Ana, mənə bir layla çal.

Ana, mənə mahnı oxu,
Göydə ulduzlar da yatsın.
Ana, mənə bir layla çal,
Ay da yumurlanıb batsın.

Yuxulasın meşə, dəniz
Yuxulasın dünya səssiz.
Yuxulayaq hər ikimiz.
Ana, mənə mahnı oxu,
Gözlərimə qonsun yuxu.

Yuxularım çiçək-çiçək,
Qanadları zər kəpənək.
Əsib gəlsin sərin külək,
Ana, mənə bir layla çal.
Gözlərimə qonsun yuxu,
Ana, getmə, yanımda qal.
Ana, mənə mahnı oxu.

XƏYAL

Nə xoşdur çırpınmaq bahar eşqilə
Nə xoşdur ayrılıq, nə xoşdur vüsal,
Bağlayıb günləri, ayları ilə
Sən yenə uçursan cilovsuz xəyal...
Sular lillənəndə, çaylar daşanda,
Bahar nazlı-nazlı yaxınlaşanda,
Sən, coşqun xəyalım, tapmırsan məkan,
Nə doymaz əjdaha olurmuş insan...
Gör aləm nə xoşdur, en, gəl, xəyalım,
Yetər, yolçuluqdan dincəl, xəyalım.
Çırpınma demirəm, sən ki bir quşsan,
Bu geniş dünyada yüksəl, xəyalım...

SU PƏRİLƏRİ

Gecələr dənizdən çıxan pərilər,
Pəncərəmdə yanan işığa baxdı...
Dedilər, görəsən bu gecəyarı
Bu narahat insan niyə oyaqdı?
Su pərilərinin ipək saçları
Suda sığallanır, suda daranır,
Daha nə bilsin ki, su pəriləri
Bu yalqız otaqda şeir yaranır.
Ey su pəriləri, cumun sulara,
Dənizin qoynudur sizin eliniz.
Nə sizə tanışdır mənim sözlərim,
Nə mənə aydındır sizin diliniz...
Gedin, gözəllərim, sularda qalın,
Onsuz da şairin çoxdur ortağı.
Bəlkə dənizə də yetişər bir gün
Zərif şeirlərin zəif sorağı.
Gözəl, ipəksaçlı su pəriləri
Gedin dənizləri bəxtiyar edin.
Sizdən dəniz küsər, dalğalar küsər,
İşıqdan gözünüz qamaşar, gedin...

SEVGİ

Şəhərlər həyəcan içindədir,
Riqqətlə titrəyir teleqraf telləri, –
İki sevən ürək
Axtarır bir-birini.
İki sevən ürəyin
Bir-birindən yoxdur xəbəri...
Şəhərlərdən biri
Yandırır işıqlarını,
O biri şəhərin üstünə çökür
Axşam qaranlığı...
Maşınlar, avtobuslar
Elə bil ayrılıq qəmiylə
Hərəkət edir.

Qatarlar ayrılıq yükünü
Aparıb gedir.
İki sevən ürək
Qovuşsun gərək...
Ürəklərin ayrılıq qəmi
Şəhərlərin üstünə
Qara bulud kimi çökür.
Şimşək çaxır
Dənizin üstə,
Dağlara dolu tökür.
İki sevən ürək
Qovuşsun gərək...

ƏLVİDA

Əlvida, otağım, mavi dənizim,
Əlvida, qumlarda görünən izim.
Yollara tökülən xəzəl, əlvida,
Soyuq təbiətli gözəl, əlvida.
Dənizdən xoş əsən həzin rüzgarım,
Sahilə düzülən qağayılarım,
Suda qanad açan yelkən, əlvida...
Sabah ayrılıram sizdən, əlvida...
Görüşə gələndə hər yay, hər payız
Sizi yenə belə xoşhal görəydim.
Dünya sevinc ilə dolaydı yalnız.
Hicran görməyəydim,
Vüsal görəydim.
Baltik dənizinin qumlu sahili,
Əlvida, xoş keçdi sizdə günlərim...
Bir başqa sahilə gedirəm indi,
Gözləyir həsrətlə məni Xəzərim.
Salamlayır səni, Baltik dənizi,
Dostluq salamıyla göygözlü Xəzər.
Dəniz də dostlaşar,
Çay da dostlaşar,
İnsanlar dünyada dost olsa əgər...

* * *

Dar gündə başımın üstünü aldın,
Əzəldən tanıyıb bilmədiyim dost.
Halıma acıdın, dərdimə qaldın,
Xoş gündə danışıb gülmədiyim dost.

İsitdi qəlbimi bütün bir qışı
Mavi gözlərinin həzin baxışı.
Nə yaxşı tanıdım səni, nə yaxşı,
Eşqini qəlbimdən silmədiyim dost.

* * *

Sənlə xoş keçən o görüşləri
Ömrümün ən şirin yuxusu sandım.
Səni tanıdığım o gündən bəri
Elə bil yuxudan birdən oyandım.

Nə şirin, nə gözəl bir röya idi
Şirin söhbətlərin, şirin vüsalın.
Bu bir dostluq idi, ya sevda idi,
İlişib könlümdə qaldı xəyalın.

Məni bu yuxudan oyatmasınlar,
Xəyalın könlümdən qoy silinməsin.
Yandırsın qəlbimi bu eşqin odu,
Yandırsın, aşkarda heç bilinməsin.

* * *

Ömrümü güllərə məftun yaşadım,
Gülü, bənövşəni, nərgizi sevdim...
Gecə qaranlıqda üşüdü qəlbim,
Səhəri, işığı, gündüzü sevdim.

Ömrümün bəzəyi oldu həmişə
Gah dağ çiçəkləri, gah aran gülü.
Ağladım üşüsə nazlı bənövşə,
Ağladıqca görəndə nigaran gülü.

Deməyin çiçəklər dilsizdir, laldır,
Ayrılıq rəmzidir bu ağ çiçəklər.
Çiçəklər aləmi – incə xəyaldır,
Gözəldir, qəşəngdir zanbaq çiçəklər.

QƏRƏNFİLLƏR

Yuxuda çiçəklər görürəm hər gecə,
Öpürəm onları gizlicə...
Hər yanım çiçək,
yastığım, yorğanım çiçək...
Çiçəklər əlvan-əlvan,
çəmən-çəmən,
Bu çiçəklər aləmində
Xumarlanıb yatıram mən,
Yuxuda çiçəklər görürəm.
Qərənfili seçir könlüm
çiçəklər arasından.
Elə bil iki damla qan sızır
ürəyimin yarasından.
Bu alov rəngli qərənfilləri
Yar vermişdi ayrılıq dəmi.
Elə bil çökmüşdü
onların üstünə dünyanın qəmi...
Yuxuda qərənfillərimi görürəm,
Yığıb solan çiçəklərimi,
Ümid çələngi hörürəm.

BORCLUYAM

Bir ömrü yüz ömrə calasam belə
İnsanlara borcum qurtarmaz mənim.
Paylardım yurdumun çiçəklərini,
Azalaydı borcum kaş bir az mənim.

Borcluyam həkimin nicat əlinə,
Vətən havasına, vətən gülünə...
Borcluyam elimin şirin dilinə,
Qurtarmaz borclarım heç bu yaz mənim.

Vəfalı dostlara borcluyam xeyli,
Bu doğma torpağa-daşa borcluyam.
Qardaş qayğısıyla sevən dostlara,
Ala gözlərdəki yaşa borcluyam.

Bahar, səxavətin artıqdır sənin,
Deyirəm, borcumuz qalmasın daha.
Gəl sənin qoynunda süfrələr açaq,
Uzansın məclislər, çəksin sabaha...

Bir az da möhlət ver, aparma, ölüm,
Qoy bu borclarımı qaytarım, gedim.
Dünyaya məhəbbət borcum var mənim,
Qoy ki, haqq-hesabı qurtarım gedim.

TƏRANƏ QUCAĞINDA BİZƏ BAHAR GƏTİRDİ

Şaxta pəncərədə naxış-naxış,
Bəyaz örtüyünü hər yana sərib qış.
Salxım-salxım buzlar sallanır
ətəyindən damların.
İndi oğlan çağıdır qışın, qarın.
Bayırda – sıfır altında
iyirmi beş dərəcə şaxta...
Oturmuşuq bir dəstə qadın
Geniş, işıqlı, isti bir otaqda.
Xəstəxana otağı,
Xəstə, yorğun qadınlar,
Sağalmaq ümidi, həyat sorağı...
Təranə gəlir, basıb sinəsinə

Kapron torbada gətirdiyi
nərgizləri, –
Şaxta vurub dondurmasın deyə.
Bakıdan göndəriblər hədiyyə.
Bir də yamyaşıl Lənkəran xiyarı.
Elə bil bir an üçün
Otağımıza doldurur baharı...
Bəlkə də bahara çıxmaq ümidi olmayan,
Xəstə, yorğun qadınlar
Yığılır başına
Abşeron ətirli nərgizlərin.
Ümid böyük, ümid dərin.
Sevinc bir an qalxır
şahlıq taxtına
Sərvət paylananda dünyada
Çiçəklər düşüb
qadınların baxtına.
Yer üzünün bu gözəl nemətinə min alqış!
Buzuyla, ağ qarıyla elə bil basılır qış.
Paylaşdırıb nərgizləri,
sinəmizin üstündə daşıyırıq.
Bahar eşqiylə, bahar ümidiylə
yaşayırıq.

Moskva, dekabr, 1971

NARCAN

Üç gün, üç gecə ərşə çıxdı
qadın fəryadı...
Ona çarə tapılmadı.
Qan-yaş tökdü
üç gün, üç gecə.
Gözlərinə qaranlıq çökdü
üç gün, üç gecə...
Onun yazıq vücudunu
dəvə karvanına yük elədilər,

Tanrı dərgahından
aman dilədilər.
Apardılar cadugərə,
Yalvardıpar lap göylərə –
Ona çarə tapılmadı.
Sarı qumlu səhralarda
Sönüb getdi ah-fəryadı,
gözündə dondu göz yaşı.
Sarı qumlu səhralarda
ucaldı bir məzar daşı.
Əsrin əvvəllərində
belə köçdü bu dünyadan
Narıngülün qəm karvanı...
Beş övladın gənc anası
Bir həkimsiz, bir dərmansız
Tərk elədi bu dünyanı.
Ulduzlar toplaşmışdı
Kolxozçu qızı Narcanın başına,
Elmin parlaq ulduzları,
alim cərrahlar, –
Elmin şöhrəti, vüqarı.
Qüdrətli əllərdəydi kövrək həyatı.
Zəka bahadırları
verəcəkdi ona nicatı.
Vertolyot quş qanadına götürdü
Onu Amanbay kəndindən,
Təyyarə üç saat əlli dəqiqəyə
gətirdi
Moskvaya, qadın xəstəxanasına.
Alim cərrahlar kömək etdi,
Dərdinə çarə tapılmayan
Narıngülün Narcan nəvəsinə.
Narcanın xəstə yatağını
Mələküzlü şəfqət bacıları
bürüyür.
Narcanın səhhətini
loğman həkimlər qoruyur.

Ölümün pəncəsindən
Qoparırlar Narcanı.
O, bəxtiyar gözləriylə oxşayır
Yaşadığı dünyanı.
Narcanın qıyıq badam gözlərində
Həyat gülür,
Yenidən həyata qaytarılan
Bir ömrün nurlu
şəfəqləri tökülür.

1971

KAŞİR YOLU

Moskvadan çıxan yollar
Həyat damarlarıdır.
Geniş, böyük bir ölkəyə
işıq dağıdır.
Vətən davasında
nər igidlər qorudu
bu yolları.
Moskvadan çıxan yollar –
Ölkənin şah damarı!
Kaşir yolu deyilir
bu yolun da adına.
İşğalçılar bu yollarda
rast gəldi
Qul olmaq istəməyən
bir millətin inadına.
Kaşir yolu deyilir
bu yolun da adına.
İşıqlı bir bina var
Kaşir yolunun üstdə.
Bir ümidlə yönəlir
Bura çarəsiz xəstə.
Bina deyil,
Elə bil

Genişcə bir şəhərdir.
İnsanlığın baxtına
açılan bir səhərdir.
Zəka bahadırları,
idrak qəhrəmanları,
Cəngə girişib burda
insanlığın ən qəddar.
amansız düşməniylə.
Varlığıyla, canıyla
Burda göstərir hünər,
Burda göstərir inad.
Burda fikir işləyir,
Zəka açır qol-qanad.
İnsan ömrü uğrunda
burda vuruşlar gedir,
möcüzələr yaranır.
Axtarış yollarında
Xeyirli işlər gedir...

1971

AYSELİM, AYSEL!

Evimizdə yeni bir nəğmə kimi
Səsləndi bağırtıların,
Ayselim, Aysel!
Töhfəsi oldun bizə
Builki son baharın...
Zərif çiçək kimisən
Kövrək, məzəli...
Evimizin körpəcə gözəli...
Əllərini, qollarını
açmaq istəyirsən...
Bələklər, bağlar içindən.
Qurtarmaq, qaçmaq
istəyirsən...
Körpə, zərif çiçəyim,

Alagözlüm, göyçəyim,
Bil, varlığın bir amansız
qanunu var,
Dünyada azad yaşar
Yalnız güclü olanlar.
Sən böyüyüb yer üzünə
Möhkəm ayaq basarsan
Bələklərdən, bağlardan
Çıxıb azad yaşarsan,
Ayselim, Aysel.
Körpəcə zərif çiçək,
Alqışlasın səni el,
Biz səni xoşbəxt görək...

* * *

Gözlərim həmişə mavi-mavi dəniz görəydi,
Göy üzünü tərtəmiz görəydi,
Çəmən-çəmən çiçəklər görəydi,
Al-əlvan naxışlı ipəklər görəydi...
Dünyanı şirin yuxuya dalmış görəydi.
Torpağın yarasını sağalmış görəydi,
Gözlərim şirin həyat nemətini görəydi
hər yerdə.
Torpağın yaralarından
qan axmayaydı bir də.
Yer üzünün məşəli günəş
Par-par yanaydı hər gün.
Günəş nuruyla işıqlanaydı
kainat bütün...
Gözlərim yalnız səadət görəydi,
insan səadəti;
Məhkum görməyəydi dünyada
heç bir xalqı, heç bir milləti...
Gözlərim həmişə mavi-mavi dəniz görəydi,
Göy üzünü tərtəmiz görəydi...

GECƏ UÇAN TƏYYARƏLƏR

Uğur olsun, uğur olsun,
Gecə uçan təyyarələr...
Bir də geri dönərsiniz
Haçan, haçan, təyyarələr?..
Bir işıqlı niyyət ilə
Uçursunuz uzaqlara.
Uçursunuz fəsillərə,
Qışdan çıxıb, ilk bahara.
Alsın məni qanadınız
Uçaq, uçaq hər diyara,
Qanadlanıb uçmaq ilə
Çatar insan arzulara.
Yolunuz işıqla dolsun,
Uğur olsun, uğur olsun.
Gecə uçan təyyarələr,
Gecə uçan təyyarələr...

1971

İNSAN HƏRARƏTİ

Xizəkdə gəzə bilmirəm,
Şaxtaya dözə bilmirəm.
Buz üstə sürüşməyə də
yoxdur halım...
Cənubda Xəzər sahilində qalıb
fikrim, xəyalım.
Bakının iliklərimə işləyən
Əsəbi küləklərini istəyirəm.
Axşamları boz dumana bürünən
Qaraşəhəri istəyirəm.
Dağüstü parkdan
Bayıl burnuna qədər
Muncuq-muncuq düzülən
Çıraqların işığını görürəm,
Bakının
Axşam yaraşığını görürəm.

Əsrlərin dalınca lal-dinməz
baxa-baxa qalan,
Dünyadan karvanlar yola salan,
ehtişamından ləzzət alan
Qız qalası üçün darıxıram.
Dənizin
Həzin və kövrək laylası üçün
darıxıram.
İnsanlar duyur,
Dostlar gözlərimdən oxuyur
Qəribsəyən könlümün
intizarını.
Ətrafımı alırlar
Söz açıb şirin-şirin,
Vəsf edirlər Azərbaycan baharını.
Biri zümrüd Göygölün
Hüsnü-təbiətindən danışır,
Biri əmlik kababının
ləzzətindən danışır:
Biri qırqovul,
turac ətindən danışır.
Biri əfsanəvi Neft daşlarının
Qəhrəmanlıq şücaətindən danışır...
Biri Azərbaycan bayatılarının
səmimiyyətindən danışır.
Biri Sabir şerinin
hikmətindən danışır,
Könlümü qızdırır şaxtada
dost qəlblərinin ünsiyyəti.
Nə qüdrətlisən, insan hərarəti.
Dost dilində əzbər olan
Yurdum, şöhrətim mənim,
Nizami ünvanlı,
Füzuli imzalı
millətim mənim.

VİDA

Yuxuda dünyayla vidalaşırdım,
Dünya gözəl idi, ayrılmaq çətin.
Deyirlər, yaxşıdır qocalıb ölmək,
Belədir qanunu kor təbiətin.
Dünyadan ayrılmaq çətindir, gülüm,
Tez də gəlsə, gec də aparsa ölüm.
Həyatın günləri keçsə də acı,
Ölümdən istəmir insan əlacı...
Yaşamaq – namuslu bir insan kimi
İnsana şərəfdir, böyük nemətdir.
Ömrün uzunluğu bəs deyil, ömrün
Mənalı keçməsi bir səadətdir.
Ömrü kitab kimi vərəqləyəndə
Nə qədər boş günün, ziyanın olmuş.
Nə qədər yaşayıb yaratmısansa
Bu ana torpağın, dünyanın olmuş.
Boş keçən günlərin ağ vərəqlərdir,
Yazmamısan ora bir sətir belə.
Çalışaq, dolduraq günlərimizi
Həyatın işıqlı nəğmələriylə.

MEŞƏ QUŞLARI

Nədən belə söhbət açır
meşə quşları?
Yazqabağı kim salmışdır
işə quşları?
Elə bil ki, hey yığışıb
iclas edirlər,
Görən, kimin həyatını
xilas edirlər?
Səhər tezdən civildəşir,
qarıldaşırlar,
Bu budaqdan o budağa
hey dolaşırlar,

Bu dünyanın işlərini
götür-qoy edir,
Yoxsa quşlar meşələrdə
yenə toy edir?
Bu sevişmək, sevdalaşmaq
söhbəti deyil,
Meşələr də bu quşların
cənnəti deyil.
Körpə quşlar
zirvələrə uçsalar əgər,
Yüksəklərdə yazıqları
qartallar yeyər.
Yerə enib torpaq üstə
dənlənsə bir az,
Yer üzündə bu quşları
heyvanlar yeyər.
Meşə boyu hər tərəfdən
ovçular güdər.
Yuvalardan ayrılsalar,
quzğunlar didər,
Ovçularmı salmış burda
işə quşları?
Sizin nə çox dərdiniz var,
meşə quşları?
Bəlkə quşlar canlarını
xilas edirlər.
Quş ömrünü yaşamaqçın
iclas edirlər?!

* * *

Gözlərin ürəyimin içinə baxardı,
Heç nəyi gizlədə bilməzdim səndən.
Fikrin düşüncələrimin aləmində
şimşək kimi çaxardı,
Yollarımı işıqladardın sən.
Ömrümüzü bulaq suyu kimi saf,
Ayna kimi ləkəsiz yaşadıq,
pak və təmiz yaşadıq.

Elə maddələrdən yoğrulmuşdu ki
varlığımız –
Nə ləkə qalırdı onda, nə qara.
Dağa söykənən kimi
Arxalanıb yaşadıq
xalqımıza, sədaqətli dostlara.
Hərdən fikirlərim dumanlı,
hərdən pərişan.
Həmişə şit-şit
gülə bilməz ki, insan.
Ciyərlərimizə doldu
Dağ çiçəklərinin ətri,
Dərmanımız vətən havası oldu.
Qəlbimiz
nə Vətəni, nə gözəl insanları
sevməkdən yoruldu.
Ürəyi xırda-xuruş yük ilə
Dolanlara acıyıram.
Hisli çıraq kimi
Qurumlu olanlara acıyıram.
Təmiz duyğular, pak hisslər üçün
qurulub ürək.
Ən ali əməllərdən, arzulardan
Yorulub ürək.
Bədxahlığın nişanını
bu aləmə taxmayın,
ürəyə çirk buraxmayın.

GETDİN

Getdin,
gecələrimin
şirin yuxusunu apardın.
Könlümün
sevinc, fərəh duyğusunu apardın.
Həsrətim, hicranım mənim,

Ümidim, gümanım mənim.
Açılan çiçəyə,
Suyun aynasına,
Sevişən quşların
axşam sevdasına
Baxıb-baxıb sevinə
bilmirəm.
Sən gedəndən bəri,
a qızım,
Doyunca deyib-gülə bilmirəm,
dinə bilmirəm...
Həsrətim, hicranım mənim,
Ümidim, gümanım mənim...
Uzaq, qərib bir ölkəyə
işıq apardın...
Boz qumlara, boz qayalara
Yaraşıq apardın...
Ağlın, kamalınla,
Şux təbiətin,
zərif xəyalınla...
Arzum budur, qızım,
Qədəmlərinlə həmişə
Nurlu günəşi andırasan...
Harda qaranlıq içində
yaşayırsa insanlar,
Orda işıq yandırasan...

FİDANA

Fidanım, nazlı dilbərim,
Bənövşələr açanda gəl.
Yolunda qalıb gözlərim,
Güllər ətir saçanda gəl.
Fidanım, sənsizəm, aman,
Görüşməyə varmı güman!
Gözlərəm səni hər zaman,

Yuxularım qaçanda gəl.
Çağıraram ilk baharda.
Səni gözlərəm yollarda.
Qoyma məni intizarda,
Sən durnalar uçanda gəl.

1969

* * *

Görəsən o vəfasız
Niyə məni unutdu?
O şirin və duzlu qız
Niyə məni unutdu?
O gələndə gözlərim
Sevinc yaşıyla dolur.
Gedəndə ürəyimdə
Qəribə bir hal olur.
Bahar kimi təzədir,
Çiçək kimi ətirli,
Dostdur, könül dostudur –
Sevimli və xətirli,
Mən əzəldən məftunam
O qızın zəkasına,
Sözünə, söhbətinə,
Mehriban ədasına.
Coşqun təbiətinə,
O həzin sevdasına.
Görəsən o vəfasız
Niyə məni unutdu?
O şirin və duzlu qız
Niyə məni unutdu?

İNSAN BALALARI

İlan çalmış kiçik Xanımın
Şümşad bədənindən
zəhəri sordun,
Qaraca qız, Qaraca qız.

Körpə ciyərlərini,
balaca ürəyini
yaman yordun,
Qaraca qız...
Nə uşaqlıq sevinci gördün,
Nə bir ürəkdən güldün,
Qaraca qız.
Qara torpaq üstünə
düşüb öldün,
Qaraca qız...

* * *

Hisli, qara çıraq işığında
Bir oğlan uşağı
məktub yazır...
Zorla, güclə düzür
hərfi hərfin yanına.
Ömründən, günündən,
Çəkdiyi min əziyyətdən yazır.
Sahibin ona verdiyi
zülmdən, zillətdən yazır.
"Gəl, baba can,
qurtar məni
Bu qəmdən, bu bəladan
Vallah, baba can,
bu əziyyətlərə dözə bilməz
heç bir insan..."
Sonra qatlayır kağızı,
Əyiş-üyüş hərfləri
düzür yan-yana,
"Bu kağız çatacaq
kənddə babama...".
Xoşbəxt yaşayır
ölkəmin balaları,
Böyükdür, aydındır
onların arzusu, niyyəti.

Çörəyə, işığa möhtacdır
fəqət,
dünyadakı insan balalarının
böyük əksəriyyəti.
Balaca balalar,
insan balaları!
Yer üzünün bütün nemətlərini
sizə paylaya biləydim...
Havanı, suyu, günəşi
sizə verə biləydim,
İsti otaqlardakı
gur işıqları,
Ocaqlarda yanan atəşi
sizə verə biləydim...
Sizin yalın ayaqlarınızı,
üşüyən əllərinizi
Ürəyimin hərarətiylə
qızdıra biləydim.
Zamanın əliylə sizə,
yer üzündəki
bütün insan balalarına
Əbədi səadət fərmanı
yazdıra biləydim.

1968

İNSANLARI SEVMƏSƏYDİM

Xoşbəxt ola bilərdimmi
Mən bu çiçəklər olmasa?
Sarı nərgiz, ağ yasəmən,
Bir də lalələr olmasa?

Dost nəfəsi duymasaydı,
Könül ömrü sevərdimi;
Dərdlə şərik olmasaydı,
Necə çəkərdim dərdimi?!

Göy çəməni, axar suyu,
İlk baharı sevməsəydim,
Xoşbəxt ola bilərdimmi
İnsanları sevməsəydim!?

İŞIQ

Bu gecə evimdə işıqlar söndü.
Nə qəmli olurmuş dünya işıqsız,
Deyirlər şairin odlu ürəyi
Zülmətdə nur saçır, guya işıqsız...
Bir kiçik şeir də yarada bilsəm,
Şair ilhamına deyib afərin,
Gündüzün eşqiylə bircə an gülsəm
Dolar ürəyimə nuru göylərin.
Ey ilham, ey məni yaşadan qüvvə,
Qəlbimdə bir bahar nuru oyandır,
Sönsə də evimdə çıraqlar bir an
Könlümdə əbədi bir günəş yandır.

İŞIQLI DÜNYAM

Dünya, bir sirrini aşkar et mənə,
Nədən parlayırsan, nədən sönürsən?
Bu qədər siqləti alıb arxana,
Sən öz mehvərində necə dönürsən?

Kaş güllər, çiçəklər olaydı yükün,
Ağır mərmiləri daşımayaydın.
Şəfəqlər öpəydi alnından hər gün,
Sis-duman içində yaşamayaydın.

Üfüqlərin təmiz, səhərin aydın,
Əbədi baharla gözlərin aydın!
Dünyam, gözəl dünyam, işıqlı dünyam,
Həmişə aydınlıq içrə olaydın.

DURNA

Mən
yuxuda durna oluram
gecələr,
Çırpıb qanadlarımı
yerdən üzülürəm.
Geniş-geniş havalarda səf çəkən
Durnaların qatarında düzülürəm.
Uçuruq uça bildikcə,
Uçuruq diyar-diyar...
Uçuruq – qəlbimizdə
Torpaqdan aldığımız
Ən şirin,
Ən incə,
Ən sevimli arzular.
Uçuruq uça bildikcə...
Bizə həsrət qalan ellərə
Qanad salırıq,
Uca-uca dağların başında
Əylənib qonaq qalırıq.
Torpağın ətrini aparırıq
Ulduzların aləminə.
Həyat səsi qatırıq
Göydə soyuq-soyuq işıqlanan
ayın yalqızlıq qəminə.
Səhər
şəfəqlər oyadır məni.
Sevinə-sevinə durub
Qalxıram ayağa:
Sonra bütün günü
Nə həvəsim olur,
Nə macalım,
Bir də yerdən üzülüb
durna olmağa.

KİÇİK EV

Qayaların üstündə
bir ev vardı:
Pəncərələri, qapıları
Dənizə, günəşə açıq.
Qayaların altında
yırğalanırdı
Qalın bir zəncirlə
sahilə bəndlənmiş
tək bir qayıq.
Bu işıqlı, günəşli evdə
bir ailə yaşayırdı –
mehriban, təmiz...
Anaları
dərya məhəbbətli,
dərya ünsiyyətli,
Sevimli, əziz...
Böyük qızları –
Buz baltası kimi möhkəm.
Ay parçası kimi gözəl...
Kiçik qızları –
Bir az nadinc,
Bir az məzəli,
Bir az dəcəl...
Bir bacıları da vardı –
Baxışları həzin,
özü xeyli utancaq;
İncə bir çiçək kimiydi, –
Rüzgar belə istəməzdi
ona toxunmaq...
Qayaların altında
sahildə yırğalanırdı
tək qayıq.
Qayaların üstündə kiçik bir ev vardı:
Pəncərələri, qapıları
günəşə, dənizə,
bir də dostların üzünə açıq!

AD GÜNÜMDƏ

Yaqut, inci gətirdin,
Sən birinci gətirdin
Mənə hədiyyələri.
Gözünə qurban olum,
Gözümdə yoxdur mənim
Daş-qaşların dəyəri.
Mənə üfüqləri ver,
Ətirli səhəri ver,
Göy dənizi bağışla –
Üstündən üzüm keçim,
Çölü, düzü bağışla –
Qırğıtək süzüm keçim.
Mənə dağ zirvəsi ver,
Qartal, qumru səsi ver,
Geniş göy, saf hava ver,
Ürəyimə sevda ver.
Ceyran-cüyür otlayan
Yaşıl bir çöl bağışla,
Bir də dağlar qoynunda
Həzin-həzin uyuyan
Zümrüd bir göl bağışla.
Gözümdə yoxdur mənim
Daş-qaşların dəyəri;
Mənə üfüqləri ver,
Bir də günəş ətirli
Aydın səhərləri ver...

YAXŞI YOL

Yerdən gurultuyla qopub qalxan
Təyyarələrin dalınca
Baxa-baxa qaldım.
Uzaq dənizlərdə
Böyük gəmilərlə səni yola saldım.
Stansiyalardan ayrılıb gedən

Qatarların arxasınca
Kövrəlib ağladım.
Həmişə, sabaha, vüsala
Ümid bağladım.
Havalar geniş,
Dəryalar dərin,
Nələr görür sənin işıqlı gözlərin...
Sən gəzməyi sevirsən,
Otu, çiçəyi sevirsən.
Şimşəkli, ildırımlı
Tufanları sevirsən;
Namuslu, mərd,
Alnıaçıq
İnsanları sevirsən;
Cənubda yaz yağışını sevirsən,
Şimalın qarlı qışını sevirsən.
Küləyi, tufanları sevirsən;
Yaşıl budaqlı, ağ çiçəkləri
Baharı sevirsən.
Yaxşı yol sənə,
Uğurlar olsun,
Hara gedirsən get,
Mənim dərya səbrimi qurtarma.
Hara gedirsən get,
Mənim vətənə bağlı ürəyimi
Getdiyin uzaq yollara
Aparma, əzizim, aparma...

* * *

Bir son bahara da düşdü
ömrümün təqvimindən,
Nə sənə məhəbbətim,
nə həsrətim azaldı.
Özüm də heç bilmirəm
niyə bir ömür boyu

Gözüm uzaq yollarda –
sənin yolunda qaldı.
Bir qocaman dağ olsan
səni vurub yıxardım.
Ürəyimdən ən incə
teli necə qopardım?
Dünyada gözəl də çox,
gözəl ürəklər də çox.
Şirin-şirin arzular,
incə diləklər də çox.
Bir sən oldun könlümün
yaxın dostu, həmdəmi.
Sən olmasan tutmazdı
bəlkə əlim qələmi.
Sən olmasan baharın,
yazın ətri olmazdı.
Sən olmasan bir dünya
sevinc belə çox azdı.
Baharın çiçəkləri
açıb solmasın sənsiz.
Ömrüm sənsiz olmasın,
şerim olmasın sənsiz.

* * *

Körpə sərv ağacını
hər yandan bağlamışdılar, –
Küləklər, qasırğalar
sındırmasın deyə onu,
Cırılıb tökülməsin deyə yaşıl donu.
Sərv ağacı fəryad etdi.
Özüm, özüm, dedi,
Qoyun küləklərə sinə gərim.
Qasırğalara dözüm dedi
Bağlamayın məni hər yandan.
Qoyun tufanlarla üz-üzə dayanım,

Yağışlarda islanım,
istilərdə yanım;
Saralsın yaşıl donum,
Qoyun şaxtalarda donum,
Yoxsa yüksəlib boy ata bilmərəm,
Başımın üstündə hərlənən buluda
çata bilmərəm.

BAYRAM

Bilsəydim sən gələcəksən
Könlümdən bayraqlar asardım,
Şadlıq, sevinc nəğmələri
yazardım.
Yandırardım bütün çıraqları,
Qonaq çağırardım evimə
Qışın ortasında baharı,
Əziz bayramları var elimin:
Məhsul bayramı, əmək bayramı,
Bir də
Şirin bir bayramı var könlümün –
Gözəl insanlarla görüşmək bayramı...
Nəcib, fədakar,
Ağıllı insanlar
Könlümə həmişə ilham olur,
Yaxşı adamlarla görüşəndə
Mənimçün ən böyük bayram olur.

MƏTBƏX ŞEİRLƏRİ

1

Qadın olmasaydım əgər,
Qazanların, qabların,
Nimçələrin, çömçələrin
aləmindən qaçardım,

Səhəri dəniz qırağında
qayaların üstündə açardım...
Ciyərlərim dolusu
nəfəs alardım dəniz havasıyla,
Baş-başa qalardım
Sahillərin gözə görünməyən
səfasıyla.
Sinəmi açardım
səhər rüzgarına...
Həzin-həzin
gilə-gilə
nəğmələr qoşardım
Abşeron bağlarına...
Ürəyim bu mətbəx aləmində
yaman darıxır,
Mən
Bir azca da şairəm axı.

2

Şeri gözələ yazarlar,
Baharda yaz çiçəklərinə,
Payızda xəzələ yazarlar...
Hicran ağrısına,
Şirin vüsala yazarlar,
hüsn-camala yazarlar...
Qazandan qalxan buxar,
Dızıldayan samovar,
Nədən şeir olmasın?!
Nədən şeir olmasın
Tərtəmiz su altında
Yuyulub
Ağappaq olan qablar?!
Biri şit sevir,
biri şor sevir,
Biri bişmiş,
biri çiy pomidor sevir...
Birinin yeməyi yağsız gərək...

Birinin xörəyi soğansız,
sarımsaqsız gərək...
Bütün günü yu, sil,
bişir, düşür,
Birinin qismətinə
yüksək masa arxasında oturmaq,
Birinin qismətinə
qab-qacaq yumaq düşür...
Nə zərər,
Bəzən yüksək məclislərdən
daha parlaq,
daha təmiz olur
Adi mətbəxlər...
Ocaqda soğan qovrulanda
göz qoymasam,
yanıb kül olar...

Xörəklərin də işi müşkül olar.
Ocaq qabağında
yanıb, yanıb
kül olan,
Könül aləmində
İşləri müşkül olan
aşpaza göz qoyan hanı?
Göz qoyun, göz qoyun –
Yanmasın
xörəklərə ləzzət verən soğanı...

3

Güllü bir bağça da şeir ola bilər,
Adi bir mətbəx də...
Bir çiçək,
bir ocaq,
bir hisli qazan.
qalxıb çıxa bilər
Sənətin oturduğu taxta...
Şerin mövzuları
gəlməz saya –
Yalnız şair gözlərilə
baxılarsa bu dünyaya...

4

Bir kiçik mətbəx pəncərəsindən
İlin dörd fəslini görürəm...
Yayın, qışın
yazın, payızın əslini görürəm.
Baharda
Pəncərəm önündəki boylu-buxunlu
Qovaq ağacı
yavaş-yavaş puçurlayır,
yarpaqlayır,
yaşıl don geyinir.
Meh əsir, budaqlar
yavaşdan-yavaşdan deyinir...
Yay olanda yırğalanır
bütün cah-calalıyla,
Payız külәkləri girəndə qoynuna
Saralır dərin qəmi, məlalıyla.
Sonra qış gəlir,
Ağac soyunur tamam...
Elə bil çılpaq qalır
Bərli-bəzəkli bir ilham...
Ağac, bu çılpaq halıyla,
Qəmi, məlalıyla
Sinə gəlir ayazlara,
şaxtalara,
Sağ-salamat çıxmaq üçün
Əzablarla gözlədiyi
bir bahara...
Ürək geniş olarsa,
xəyal dərin olarsa,
Nə arzular ölər,
nə fikir sönər...
Könüldə bir işıq,
bir atəş varsa,
Balaca bir mətbəxdən də
böyük bir dünya
görünər....

1964

* * *

İsmayıl Əfəndiyevin xatirəsinə

Hərdən gülüşün düşür yadıma,
Hərdən qəmin, məlalın,
Hər şeyi sezə bilən,
Hər şeyə dözə bilən
Qəlbin, porişan halın.
Sakit axan sular kimi
axıb getdin.
Dostlarının ürəyində ağrı buraxıb getdin.
Yenə gələcək bahar,
yenə çiçək açacaq çəmən.
Budaqlardan sallanacaq
salxım-salxım yasəmən.
Quşlar
qatar-qatar
qürbətdən vətənə dönəcək.
Günəş yenə dənizdən doğacaq,
dağların dalında sönəcək.
Ağ göyərçin balası kimi
çırpınan kiçik qızın
sevgilisinin sinəsinə yaslanıb
isti göz yaşları
tökəcək sənincün.
Yanıb ağlayacaq
için-için.
Sonra həzin bir təbəssümlə
qaldıracaq başını,
siləcək göz yaşını.
Yenə dünyada vüsal olacaq,
Olacaq acı hicran.
Bircə sən dönməyəcəksən.
Dönməyəcəksən getdiyin əbədi yoldan...

GÜLLƏRİN

Gəldim çiçəklərlə vidalaşmağa,
Gördüm ki, yaşlıdır gözü güllərin,
Bəlkə gileylidir, şikayəti var,
Bəlkə vardı mənə sözü güllərin.

Xeyli qüssəliydi gülün görkəmi,
Çökmüşdü üstünə payızın qəmi,
Onların bahardır məhəbbət dəmi,
Açılar gül kimi üzü güllərin.

Baharsız gülün də şöhrəti olmaz,
Baharsız xatiri, hörməti olmaz
Baharda heç kəsə minnəti olmaz,
Açılar əllisi, yüzü güllərin....

PAYIZDA GÖYƏRƏN OTLAR

Ağaclardan
qızılı yarpaqlar tökülür.
Boylu sərvlərin beli bükülür.
Yaşıl-yaşıl otlar,
Bu soyuq payız günündə
Yer üzündə
sizin nə işiniz var?
Necə üşüyürsünüz – görürəm,
Bacarmıram sizə hərarət verəm.
Qoruyam sizi
payızın acı nəfəsindən,
Qurtaram sizi
uğuldayan küləyin
vahiməsindən.
Necə üşüyürsünüz bu küləkdə,
görürəm,
Bacarmıram,
Bacarmıram sizə hərarət verəm...

QIŞDA BAHAR HƏSRƏTİ

Qar yağır asta-asta,
Yağır torpağın üstə.
Qar yağır aram-aram,
Mən qarların altından baharı axtarıram.
Üfüqlərdən süzülüb gəlib bahar,
Durnaların qatarına
düzülüb gəlir bahar...
Uzaq-uzaq ölkələrdən
Elə bil küsüb gəlir bahar...
Qar yağır
ağır-ağır,
Ağac budaqlarında
Oğrun-oğrun gizlənən
baharı izləyirəm...
Qar yağır asta-asta,
Durub qarların üstə
Baharı gözləyirəm
Baharı gözləyirəm.

GECİKƏN BAHARA

Nədən gecikirsən, nazlı bahar,
Səni çoxdan gözləyir
quru, çılpaq ağaclar.
Gəl, nazlı qədəmlərin
könlümüzə xoş olsun.
Saçaq-saçaq nurların
nuş olsun.
Ağaclar puçurlasın,
göy otlar yerdən qalxsın.
Nərgizlər, bənövşələr
bizə fərəhlə baxsın...
Lalənin bədənində
əlvan şəfəqlər gülsün,
Söyüd yarpaqlarından
incə şehlər tökülsün.

Qönçənin dodağında
titrəsin xoş təbəssüm.
Bahar, nazənin bahar,
Açsın mənim də könlüm.
Səni yaman gözləyir
Hər yanda körpə quşlar,
bir də belə gecikmə,
çiçəkli, nazlı bahar.

1952

DƏNİZİN SƏSİ GƏLİR

Unutmaq istəyirəm xatirələri,
Dənizin səsi gəlir...
Unutmaq istəyirəm
Qəlbimin sınıq məhəbbətini,
İztirablı bir eşqin hekayətini.
Unutmaq istəyirəm
Acı-şirin xatirələri,
Dənizin səsi gəlir.
Dəniz, sevdalı dəniz,
Əfsanələr kimi şirin, xəyali dəniz,
Sevmişəm dalğalarında,
Günəşində yanmışam.
Qumlu sahillərini
Yalınayaq gəzib dolanmışam.
Məhəbbətim sənə bağlı, dəniz.
Sinəsi sinəm kimi
Hicran dağlı dəniz.
Unutmaq istəyirəm
Sahilində şirin yuxular kimi keçən
Həzin axşamları,
Günəşli səhəri,
Unutmaq istəyirəm
Yandırıb-yaxan xatirələri,
Dənizin səsi gəlir...

* * *

Mən sizi bir daha görə bilməsəm,
Xatirəmi əziz saxlayın, dağlar,
Döşünüzdən lalə dərə bilməsəm,
Siz məni aranda yoxlayın dağlar...
Uca başınızdan külək göndərin,
Məxmər döşünüzdən çiçək göndərin,
Buluddan bir bəyaz örpək göndərin,
Matəm yaylığını bağlayın, dağlar...
Mən ki çox sevərdim dağ havasını,
Sevən ürəklərin xoş sevdasını,
Bir qərib gəlinin tutub yasını,
Dost üçün doyunca ağlayın, dağlar.

* * *

Dağlar, belə yüksəklərdə
Darıxmırmı ürəyiniz?
Necə güllü, çiçəklidir
Sizin yaşıl ətəyiniz!..
Başınız ala buludda,
Ayağınız yaşıl otda.
Nə görmüsüz bu sükutda,
Yoxmu arzu-diləyiniz?..

QUŞ SƏSLƏRİ

Səhər müjdəçisi, a gözəl quşlar,
Civ-civ edirsiniz nə tezdən belə?
Sizi bir elçimi göndərmiş bahar,
Yoxsa məftunsunuz ətirli gülə?

Hələ qızarmamış göylərin rəngi,
Bir həyat səsiylə oyanırsınız.
Yuyunub, yuyunub inci şehlərdə
Şəfəqin rənginə boyanırsınız.

Hərdən çiçəkləri seyrə dalıram,
Aparır bir həzin xəyalat məni.
Sizin səsinizdən ilham alıram,
Hərdən düşündürür bu həyat məni.

Dünyadan heç zaman kəsilməyəydi
Gözəl, şən nəğməli bu quş səsləri.
Ömrün bağçasında ötəydi hər an
Fərəhli, nəşəli bu quş səsləri.

YER KÜRƏSİ

Ad günü qızıma yer kürəsini
Hədiyyə gətirdi atası axşam.
Uşağın gül kimi açıldı üzü,
Yandı gözlərində şirin bir ilham.

Ölkələr, şəhərlər gör nə yaxındır!
Dənizlər, nəhrlər qoşa-qoşadır.
Cüt axıb tökülür çaylar ümmana,
Uca-uca dağlar lap baş-başadır.

– Ata, nə yaxşıdır ölkələr, – deyir,
Bir fərəh içində çırpınır uşaq. –
Gəl gedək dolaşaq dünyanı biz də...
Körpənin bu şirin arzusuna bax.

Ölkələr, şəhərlər yaxın-yaxındır.
Arzular böyükdür, əməllər təmiz.
Kiçik barmağıyla Yer kürəsini
Gəzdi bircə anda əziz körpəmiz.

Aşdı nəhrləri, ümmanlar keçdi.
Gah uzaq şimala eylədi səfər,
Gah da uca-uca dağları seçdi,
Gah onu cəlb etdi mavi dənizlər.

– Belə yaxındırsa ölkələr, – dedi. –
Niyə bəs onlara qonaq getmirik?
Bu yaşıl, qırmızı, sarı ellərlə
Niyə yaxın olub, dostluq etmirik?

– Qızım, arzuların safdır, təmizdir,
Hələ dost da vardır, düşmən də vardır.
Görürsən, bu geniş, bu böyük dünya
Hələ çoxlarının başına dardır.

Dünyadan qan izi kəsilər tamam,
İnsanlar mehriban bir qardaş olar...
... Çatıb qaşlarını baxır bu axşam,
Qızın gözlərində min bir sual var.

Gəzib dolaşasan sən də dünyanı,
İnsanları doğma qardaş görəsən.
Nə əzilən bir xalq, nə ac bir uşaq,
Nə ana gözündə bir yaş görəsən.

Çoxlu dost elləri salamlar səni,
Gülümsər üzünə mavi ləpələr.
İşıq, nur mənbəyi gözəl yurdumuz
Getdiyin yollara nurlar səpələr.

ŞEİR VƏ HƏYAT

Köçəri quşlar kimi uçub getmişdi
Könlümdən
şerin əlvan misraları.
Mən körpəmin nəfəsilə oyananda
Gecəyarı,
Yırğalanıb beşiyini oturanda
bütün gecə,
Köçüb getmişdi könlümdən
şeir sakit və gizlicə...

Gecə keçir...
Ulduzlar da uçub gedir,
Pəncərədən şəfəq gülür,
Şirin yatan bu körpənin
Yatağına nur tökülür...
Açıb qonur gözlərini
Gülümsəyir şirin-şirin.
Nə gözəldir, nə təmizdir
İfadəsi bu gözlərin?!
Seyr edirəm onu hər an,
Könlümə bir fərəh dolur.
Körpə tumbul əllərilə
Saçlarımı çəkib yolur.
Bu səhərin, bu körpənin
Şeri gözəl bir həyatdır.
Onun xoşbəxt gələcəyi
Bir ilhamdır, bir qanaddır.
Mənə elə gəlir bu an,
Çəkib onun keşiyini,
Yırğalayır ana əlim
Gələcəyin beşiyini...

TOY

Deyirlər ki, qısqanırsan, anasan, əlbət,
Oğlun bu gün toy eləyib səndən ayrılır.
Mən nə deyim, bu sözlərdə var bir həqiqət,
Elə bil ki, ruhum indi təndən ayrılır.

Ürəyimdə fərəh də var, qısqanclıq da var;
Körpəlikdən sinəm üstdə böyütdüm onu.
O böyüdü, böyüdükcə coşdu arzular,
Kaş görəydim, dedim, bircə oğul toyunu.

İndi bizə gəlin gəlir, toy-düyün gəlir,
Daha da gur yanacaqdır evin çırağı.
İstədiyim, gözlədiyim gözəl gün gəlir,
Kim istəməz belə qəşəng, əziz qonağı.

Qoy cəbhələr ayırmasın bizi övladdan,
Qoy aparsın oğulları gözəl gəlinlər.
Qara bulud asılmasın göydən heç zaman,
Yurdumuzun üzərində parlasın səhər.

Müharibə, qan olmasın, tufan olmasın,
Qısqanclığın atəşini söndürər ürək.
Kaş toy olsun, bayram olsun, hicran olmasın,
Kama yetsin ürəklərdə bəslənən dilək.

YATA BİLMİRƏM

Başımın üstündə
ulduzlu göy,
Sağım dəniz,
solum yamyaşıl bağlar.
Bir quş ötür
səhərə qədər.
Nə onun gözündə,
Nə mənim gözümdə
yuxu var.
Eyvanda,
ulduzlu göy çadırın altında
Gül nəfəsli balalarım mışıl-mışıl
yatıb.
Bu ətirli yaz gecəsində
bütün canlılar elə bil
Şirin yuxuya batıb.
Bəs mən niyə yata bilmirəm,
yollarda yorulub qalan
Bu ətirli yaz gecəsində
bir yolçu kimi?
Yuxuların şirin dünyasına
niyə çata bilmirəm?
Bəlkə bu gecə
Yunanıstanda
dəmir barmaqlıq arxasında

Bir azadlıq qəhrəmanı
edamını gözləyir,
səhər üzü,
Vətənin qızaran üfüqlərinə
dikilir onun
Ümid dolu,
həyat dolu gözü.
Bir qadın
Hardasa doğum evində
Amansız iztirablar içində
dünyaya bir oğul gətirir –
Gələcəyin qəhrəmanıdır bəlkə?!
Ananın gözləri
halqa-halqa qaralır,
Qonur üzünə
insanlar həyatdan ayrılanda
çökən amansız kölgə,
Cavan bir qız ağlayır
için-için,
yana-yana;
Xərçəng xəstəliyindən
canını qurtara bilməyib
Dünyaya vida edir
sevimli, mehriban
bir ana.
Təbrizli şairənin gözləri
hicran yaşlı,
Sinəsi həsrət dağlıdır.
Əlcəzair qızının
ayaqları qandallı,
qolları bağlıdır,
Nə çoxdur dünyanın
dərdi, kədəri.
Nə ağırdır insanların
bitib tükənməyən qəmləri.
Hələ atom qorxusu
yaşayırkən cahanda,

Mən necə rahat yata bilərəm
balalarımla
Bu güllü, bu sarmaşıqlı eyvanda?
Kaş dünyanın heç yerində
nahaq qanlar axmayaydı,
Hakim xalqlar
məhkum xalqlara
zülm edib, xor baxmayaydı.
Fəlakətə, müsibətə qarşı insan
qardaş kimi
sinə gərib
bir çıxaydı hər bəladan.
Bəlkə azalardı onda
insanın əlacsız dərdi.
Gecələri analar da
yatağında
rahat yata bilərdi.

ODLU-ALOVLU GÜNLƏR

GET, SEVGİLİM, UĞUR OLSUN!

Heç gözlərim yaşarmadı
sən ayrılıb gedən zaman,
Get, sevgilim, uğur olsun,
sən mərd vuruş, sən mərd dayan!
Qoru təmiz eşqimizə
gülümsəyən al səhəri,
İlk gəncliyin şən çağında
çiçək açan bu yerləri.
Qoru əziz xatirələr
dolu olan bu torpağı!
Əzəmətli vətənimin
dincliyini pozan yağı
Qoy bilsin ki, mərd igidlər,
sona qızlar bəsləyən el
Azğın faşist quldurunun
önündə diz çökən deyil!
Sən gedəndə ağlamadım,
gözlərimdə od yanırdı,
Qəlbim böyük həqiqətə
bir inamla inanırdı,
Bilirdim ki, getdiyin yol
müqəddəsdir, mərd yoludur.
Qəlbindəki vətən eşqi,
müqəddəsdir, çox uludur.
Bilirdim ki, sənin yolun
məğlubların yolu olmaz!
Sən əsgərsən, əsgər olan
döyüşlərdə heç yorulmaz!